İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Avqust 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının ƏSASNAMƏSİ




"Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən 2017-ci il 31 iyul tarixli 1565 nömrəli müvafiq Fərman imzalanmışdır.

Təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası (bundan sonra – Şura) ölkənin makroiqtisadi və maliyyə sabitliyinin daha da möhkəmləndirilməsi və dayanıqlığının təmin edilməsi, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi, habelə səmərəli tənzimləmə və hüquq tətbiqetmə praktikasına nail olunması məqsədilə yaradılmış və ictimai əsaslarla fəaliyyət göstərən kollegial orqandır. Şuranın öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutması fərmanda öz əksini tapmışdır.

Şuranın əsas vəzifələrindən biri də beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla, müvafiq istiqamətlərdə təhlillər, araşdırmalar və monitorinqlər aparmaq, bu məqsədlə dövlət qurumlarının fəaliyyətini əlaqələndirmək və Azərbaycan Respublikasının Prezidentinə təkliflər verməkdir. Bu müvafiq istiqamətlər aşağıdakılardan ibarətdir:

- makroiqtisadi və maliyyə sabitliyi risklərinin müəyyən edilməsi, təhlili və onların idarə olunması;
- büdcə və pul-məzənnə siyasətinin makroiqtisadi sabitlik və sosial-iqtisadi inkişaf hədəfləri ilə uzlaşdırılması;
- fiskal dayanıqlığın gücləndirilməsi məqsədilə beynəlxalq təcrübədə geniş istifadə olunan fiskal qaydaların tətbiq edilməsi;
- maliyyə sisteminin sağlamlaşdırılması, dayanıqlığının təmin edilməsi və maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi;
- valyuta tənzimlənməsinin və nəzarətinin təkmilləşdirilməsi;
- makroiqtisadi və maliyyə sahələrində qanunvericilik bazasının təkmilləşdirilməsi;
- makroiqtisadi və maliyyə sabitliyinin möhkəmləndirilməsinə dəstək verən struktur islahatlarının həyata keçirilməsi;

Şuranın qarşısında duran digər vəzifələr isə yuxarıda qeyd olunan istiqamətlər üzrə dövlət orqanlarına və digər aidiyyəti qurumlara həvalə edilmiş vəzifələrin icrasını əlaqələndirmək, onlar arasında məlumat mübadiləsini təmin etmək, maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın və işgüzar əlaqələrin genişləndirilməsinə dair təkliflər hazırlamaq, ölkədə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə Azərbaycan Respublikasının Prezidentinə hər rübdən sonrakı ayın 30-dək məlumat vermək və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilən digər vəzifələri yerinə yetirməkdən ibarətdir.

Şura öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

- bu Əsasnamə ilə müəyyən edilən vəzifələrinə uyğun olaraq görülən işlərə aidiyyəti dövlət orqanlarının və qurumlarının cəlb edilməsi;
- müqavilə əsasında ekspertlərin və mütəxəssislərin öz fəaliyyətinə cəlb edilməsi;
- beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın edilməsi, xarici dövlətlərin müvafiq təcrübəsinin öyrənilməsi;
- fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı işçi qrupların və komissiyaların yaradılması;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq hüquqi aktların layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi, həmçinin onların hazırlanmasında iştirak edilməsi;
- fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı analitik materialların hazırlanması, tədqiqatların aparılması;
- dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə, həmçinin beynəlxalq təşkilatlara zəruri məlumatlar (sənədlər) barədə sorğu verilməsi və onlardan belə məlumatların (sənədlərin) alınması;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq

konfransların, müşavirələrin, seminarların və digər tədbirlərin keçirilməsi;
- bu Əsasnamə ilə müəyyən edilən vəzifələrin icrası ilə bağlı qərarların qəbul edilməsi;
- Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilən digər hüquqların həyata keçirilməsi.

Şuranın fəaliyyətinin təşkili üçün Şuranın tərkibini (sədrini və üzvlərini) Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Şuranın sədri aşağıdakı vəzifələri yerinə yetirir:

- Şuranın fəaliyyət planının təsdiq edilməsi və həyata keçirilməsi;
- Şuranın işinin təşkil edilməsi və ona rəhbərlik edilməsi;
- Şura üzvlərinin təkliflərini nəzərə almaqla, Şuranın iclaslarının gündəliyinin müəyyən edilməsi və keçirilən iclaslarda sədrlik etməsi;
- müzakirə edilən məsələlərə dair Şuranın qəbul etdiyi qərarları və onun fəaliyyəti ilə bağlı digər sənədlərin imzalanması;
- Şuranın fəaliyyəti ilə bağlı müvafiq işçi qruplarının yaradılması;
- ölkədə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə Azərbaycan Respublikasının Prezidentinə hər rübdən sonrakı ayın 30-dək məlumat verilməsinin təmin edilməsi;
- Şuranın Katibliyinin reqlamentinin təsdiq edilməsi;
- Şuranın təmsil edilməsi,
- Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər cari işlərin görülməsi.

Şura üzvlərinin hüquq və vəzifələri Şuranın iclaslarında və fəaliyyətində iştirak etməkdən, Şuranın iclaslarının gündəliyi, eləcə də gündəliyə daxil edilmiş məsələlər barədə təkliflər verməkdən, təmsil etdikləri təşkilatın Şura üzrə koordinatorunu müəyyən etməkdən, Şuranın fəaliyyəti ilə bağlı digər cari işləri görməkdən ibarətdir.

Tərkibi Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilən Şuranın Katibliyi Şuranın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həllini və kargüzarlıq işinin aparılmasını həyata keçirir. Sözügedən fərmanda Şuranın Katibliyinin yerinə yetirəcəyi vəzifələr aşağıdakılardır:

- Şura üzvlərinin təklifləri əsasında Şuranın iclaslarının gündəliyinin hazırlanması və təsdiq olunması üçün Şuranın sədrinə təqdim edilməsi;
- Şuranın iclaslarının gündəliyi, tarixi və keçiriləcəyi yer haqqında məlumatların həmin iclasların keçirilməsinə ən azı 5 iş günü, növbədənkənar iclaslar zamanı isə ən azı 1 iş günü qalmış Şuranın üzvlərinə çatdırılması;
- Şuranın müzakirəsinə çıxarılacaq məsələlərə dair materialların toplanması və bu Əsasnamənin müvafiq yarımbəndində müəyyən olunmuş müddətlərdə Şuranın üzvlərinə çatdırılması;
- Şuranın qərarı və Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında aidiyyəti dövlət orqanlarının və qurumlarının, hüquqi şəxslərin nümayəndələrinin və mütəxəssislərinin Şuranın iclaslarına dəvət edilməsi;
- Şuranın iclaslarını protokollaşdırılması və iclasın yekun sənədlərinin layihələrini Şuranın sədrinə təqdim edilməsi;
- Şuranın iclaslarının protokollarının və Şurada qəbul olunmuş qərarların surətlərini Şuranın üzvlərinə, habelə Şuranın qərarı ilə müəyyən olunmuş aidiyyəti qurumlara çatdırılması;
- Şuranın iclaslarının protokollarının və digər sənədlərinin saxlanılması;
- Şuranın fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu verilməsi və onlardan belə məlumatların (sənədlərin), habelə hesabat və arayışların alınması;
- Şuranın fəaliyyəti barədə ictiamiyyətin məlumatlandırması;
- Şuranın iclaslarının keçirilməsi ilə bağlı digər vəzifələrin yerinə yetirilməsi.

Şuranın iclasları növbəti və növbədənkənar olaraq keçirilir. Növbəti iclaslar rübdə bir dəfədən az olmayaraq, növbədənkənar iclaslar isə Şura sədrinin və ya Şura üzvlərinin yarıdan çoxunun müraciətinə əsasən keçirilir. Şuranın iclasları

onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın iclaslarında səsvermə açıq keçirilir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Şura sədrinin səsi həlledici hesab edilir. Şuranın iclaslarında qəbul edilmiş qərarlar protokolla rəsmiləşdirilir, Şuranın sədri və üzvləri tərəfindən imzalanır. Şuranın yenidən təşkilini və ləğvini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.



www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat